# Kənd təsərrüfatı məhsullarının sığortalanması: problemlər və perspektivlər

**E.A.MƏMMƏDOV**

**Azərbaycan Respublikası Maliyyə Nazirliyi**
**Dövlət sığorta nəzarəti şöbəsinin müdir müavini**

*«. . . aqrar bölmədə islahatlar aparmaq, mülkiyyət formasını dəyişmək, torpaq islahatı keçirmək, sərbəst iqtisadiyyata geniş yol açmaq respublikamızın həyatında çox mühüm və əhəmiyyətli, eyni zamanda son dərəcə məsuliyyətli və taleyüklü məsələdir»*

*Heydər Əliyev.*

Ümummilli liderimiz Heydər Əliyevin xalqımızın çoxsaylı tələbi və iradəsi ilə 1993-cü ildə ikinci dəfə ölkəyə rəhbərlik etməyə başladığı zaman keçmiş sovetlər ittifaqının digər respublikalarında olduğu kimi Azərbaycan da ağır iqtisadi-siyasi böhran içərisində idi. Belə bir dövrdə, Azərbaycanın ədalətsiz müharibəyə cəlb olunması və torpaqlarımızın bir hissəsinin erməni faşistləri tərəfindən işğal edilməsi nəticəsində ölkədə böyük qaçqın və məcburi köçkün kütləsinin yaranması ölkəmizdə onsuz da ağır olan iqtisadi-siyasi vəziyyəti daha da gərginləşdirmişdi.

Ölkədə iqtisadi-siyasi vəziyyətin inkişaf etdirilməsi, əsasən də bərbad vəziyyətdə olan aqrar sahənin yenidən qurulması məqsədilə çıxış yolları tapmaq və qəti qərar qəbul etmək üçün təkcə 1994-cü il ərzində H.Əliyevin rəhbərliyi altında müvafiq rəhbər işçilərin, alimlərin, mütəxəssislərin, həmçinin Beynəlxalq təşkilatların nümayəndələrinin iştiakı ilə yalnız kənd təsərrüfatı məsələlərinə həsr olunmuş 9 müşavirə keçirilmişdir.

Aparılmış uzunmüddətli araşdırmaların və məsləhətləşmələrin nəticəsi olaraq 1994-cü ilin dekabr ayının 23-də Respublika sarayında keçirilmiş müşavirədə ümummilli liderimiz H.Əliyev aqrar sektorun inkişaf etdirilməsi məqsədilə müvafiq tədbirlərin görülməsi üçün öz qəti fikrini: «… **aqrar bölmədə islahatlar aparmaq, mülkiyyət formasını dəyişmək, torpaq islahatı keçirmək, sərbəst iqtisadiyyata geniş yol açmaq respublikamızın həyatında çox mühüm və əhəmiyyətli, eyni zamanda son dərəcə məsuliyyətli və taleyüklü məsələdir»** şəklində bildirmişdi.

Məhz bundan sonra 18.02.1995-ci il tarixdə «Aqrar islahatın əsasları haqqında» və «Sovxoz və kolxozların islahatı haqqında», 16.07.1996-cı il tarixdə isə «Torpaq islahatı haqqında» Azərbaycan Respublikasının Qanunları qəbul edilməklə ölkədə aqrar islahatların həyata keçirilməsi üçün hüquqi baza yaradıldı. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, 1995-ci ildən hazırkı tarixədək

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Azərbaycanda aqrar sahə ilə əlaqədar 100-dən artıq normativ-hüquqi akt qəbul edilmişdir.

Beləliklə qeyd olunan tarixdən başlayaraq Azərbaycanda aparılmış islahatlar nəticəsində sosializm cəmiyyətinə xas olan sovxoz və kolxozlar ləğv olundu və onların bazar iqtisadiyyatına əsaslanan və xüsusi mülkiyyət əsasında yaradılan özəl təsərrüfatlarla əvəz edilməsi məqsədilə yaşından, cinsindən, milliyyətindən və harada işləməsindən asılı olmayaraq kənd yerlərində daimi yaşayan bütün olkə vətəndaşlarına əvəzsiz olaraq torpaq mülkiyyəti verildi.

Bununla da xalqımızın böyük oğlu, ulu öndərimiz Heydər Əliyev tərəfindən ölkəmizin aqrar sektorunda özəl təsərrüfatların yaradılmasının təməli qoyulmuş oldu.

Qeyd etmək lazımdır ki, aqrar sahədə əsaslı islahatlar aparmaqla ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının inkişafına nail olunması üçün beynəlxalq təcrübənin yaxından öyrənilməsi və onun ölkəmizdə tətbiq olunması məqsədilə islahatlara başlanıldığı tarixdən hazırkı dövrədək respublikada bir sıra beynəlxalq qurumların və donor ölkələrin maliyyə dəstəyi hesabına maliyyələşdirilən 20-dən artıq layihələr həyata keçirilmiş və onlardan bir neçəsi hələ də davam etdirilməkdədir.

Təməli Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş aqrar sahəyə dair Dövlət siyasəti hazırda onun layiqli davamçısı olan Respublika Prezidenti cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilməkdədir.

Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyev tərəfindən hələ 2003-cü ildə imzalanmış **«Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın surətləndirilməsi tədbirləri haqqında»** Fərmanda aqrar sektorda islahatların ikinci mərhələsinə başlamaq və bununla əlaqədar lazımi tədbirlərin görülməsini sürətləndirmək xüsusi olaraq qeyd edilmişdir.

Hesab edirik ki, qeyd olunan fərmanın məntiqi davamı olan və 11.02.2004-cü il tarixdə qəbul edilmiş **«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2004-2008-ci illər)»** nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi aqrar sahədə köklü dəyişiklərin aparılmasına və bu sahədə sahibkarlıq fəaliyyətinin daha da geniş inkişaf etməsinə imkan verəcəkdir.

Məlum olduğu kimi aqrar bolmənin idarə edilməsində mövcud pərakəndəliyi aradan qaldırmaq, bu sahənin davamlı inkişafını təmin edən idarəetmə sistemini yaratmaq, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan vətəndaşlara davamlı Dövlət yardımlarının edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 23.10.2004-cü il tarixli Sərəncamı ilə Kənd Təsərrüfatı Nazirliyi yenidən təşkil edilmiş və onun yanında Dövlət Baytarlıq Xidməti, Dövlət Fitosanitar Nəzarəti Xidməti və Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi kimi yeni qurumlar, həmçinin ölkə Prezidentinin qeyd olunan tarixli digər sərəncamı ilə «Aqrolizinq» Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2004-2008-ci illər)» həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlərlə əlaqədar Kənd Təsərrüfatı Nazirliyi tərəfindən **«Azərbaycan Respublikası regionlarının aqrar sahədə 2004-2008-ci**

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**illərdə inkişafının əsas istiqamətləri üzrə tədbirlər planı»** hazırlanmışdır ki, burada da əsas məqsəd özəl toxumçuluğun, tingiçiliyin, damazlığın və süni mayalanma xidmətlərinin genişləndirilməsi, həmçinin kəndlərdə kiçik emal müəssisələrinin yaradılması, inkişaf etdirilməsi və s. məsələlərə nail olmaqdan ibarət olmuşdur.

Qeyd etmək lazımdır ki, ümummilli liderimiz Heydər Əliyev siyasətinin davam etdirilməsi sayəsində günü-gündən qüdrətlənən və bölgədə lider dövlətə çevrilən Azərbaycanın iqtisadiyyatı inkişaf etdikcə aqrar sektorun inkişaf etdirilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirilməsi davam etdirilməkdədir. Buna ən bariz nümunə olaraq «Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında» Azərbaycan Respublikası Prezidentinin 23 yanvar 2007-ci il tarixli Sərəncamını qeyd etmək olar. Bu Sərəncamla **kənd təsərrüfatı məhsulları istehsalçılarının məhsul istehsalı üçün istifadə etdikləri yanacağın, motor yağlarının və mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən ödənilməsi** məqsədilə cari ilin büdcəsindən 80,0 milyon manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur ki, buradada əsas məqsəd **kənd təsərrüfatı məhsulları istehsalının səmərəsini artırmaq və həmin məhslulları istehsal edən insanlara dövlət dəstəyinin göstərilməsindən** ibarət olmuşdur.

Hesab edirik ki, ötən illər ərzində aqrar islahatların uğurla həyata keçirilməsi və bu istiqamətdə görülən təqdirəlayiq tədbirlər nəticəsində artıq ölkəmizin kənd təsərrüfatı sahəsi böhranlı vəziyyətdən çıxmış və dinamik inkişafa başlamışdır.

Aparılmış müşahidələr onu deməyə əsas verir ki, aqrar sektor iqtisadi baxımdan xeyli inkişaf etmiş ölkələrdə belə ən çox dəstəklənən və büdcə vəsaiti hesabına əsaslı maliyyə yardımları edilən bir sahədir. Nümunə üçün qeyd edək ki, hazırda Avropa Birliyi olkələrində **birlik büdcəsinin təxminən 40 faizi** aqrar sektorun dəstəklənməsi üçün həyata keçirilən müvafiq layihə və proqramlara istifadə edilir.

Beynəlxaq təcrübə göstərir ki, aqrar sahənin inkişaf etdirilməsi məqsədilə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fiziki və ya hüquqi şəxslərə Dövlət tərəfindən **müəyyən güzəştlər** verilir. **Bu güzəştlərə,** *təbii fəlakət nəticəsində zərər çəkmiş* ***(kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan)*** *şəxslərə dəymiş zərərin əvəzinin Dövlət tərəfindən ödənilməsi, onların banklara olan borclarının ödənilməsi və ya ödəmə vaxtının müəyyən müddətə uzadılması, bütün növ vergilərdən azad olunması* və s. daxil edilir.

Dünya təcrübəsində kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan vətəndaşlara Dövlət tərəfindən verilən **Dövlət dəsdəyinin digər forması isə,** *istehsal edilən kənd təsərrüfatı məhsullarının müəyyən risklərdən icbari sığorta etdirilməsi, ödəniləcək sığorta haqqının müəyyən hissəsinin Dövlət tərəfindən ödənilməsi, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan müəssisələrin gəlir və xərclərinə və yaxud kənd təsərrüfatı məhsullarının sığortası ilə məşğul olan sığorta təşkilatlarının bu növ üzrə zərərlərinə Dövlətin ortaq olması* və s. ibarətdir.

Aparılmış müşahidələr onu qeyd etməyə imkan verir ki, inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan vətəndaşlara

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

onların məhsullarını sığorta etdirdikləri zaman Dövlət tərəfindən verilən dəstək ən əlverişli vasitədir. Belə ki, qeyd olunan formada Dövlət tərəfindən verilən dəstək təbii fəlakətlər nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan şəxslərə dəymiş zərərlərin aradan qaldırılması məqsədi ilə xərclənən büdcə vəsaitinə qənaət etməklə yanaşı aqrar sektorun, həmçinin bu sahə üzrə aparılan sığorta işinin inkişafına öz müsbət təsirini göstərmiş olur.

Qeyd etmək lazımdır ki, məhz bu məqsədlə hələ 2002-ci ildə Azərbaycanda «Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və Respublika Prezidentinin Fərmanı ilə dəqüvvəyə minmişdir. Bu qanunun qəbul edilməsində **əsas məqsəd** *kənd təsərrüfatı istehsalçılarının əmlakının təbii fəlakətdən sığortasında Dövlətin iştirakını təmin etməklə, aqrar sahədə sığortanın inkişafını stimullaşdırmaq və sığortalılara sığorta hadisələrindən dəyən zərərin ödənilməsinə verilən zəmanətin iqtisadi əsaslarını gücləndirməkdən* ibarət olmuşdur.

Məlum olduğu kimi bəhs olunan qanunun tələblərindən yerinə yetirilməsi məqsədilə 2004-cü ildə Nazirlər Kabineti tərəfindən «Sığortalanmasına maliyyə yardımı göstərilən kənd **təsərrüfatı əmlakının** və **sığorta hadisələrinin növlərinin** və **sığorta haqqının büdcə vəsaiti hesabına ödənilən hissəsinin** müəyyən edilməsi haqqında» müvafiq Qərar qəbul edilmişdir. Bu qərara əsasən sığortalanmasına dövlət tərəfindən maliyyə yardımı göstərilən ***kənd təsərrüfatı əmlakı*** *- buğda sahələri,* ***sığorta hadisələri*** *(təminat verilən risklər) - yanğın, dolu, sel, daşqın və şaxta vurması,* ***sığorta haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilən hissəsi isə*** *- hesablanmış sığorta haqqının 25 faizi* həcmində müəyyən edilmişdir.

Bundan əlavə Nazirlər Kabinetinin 2004-cü il tarixli digər Qərarı ilə «Kənd təsərrüfatında sığortanın stimullaşdırılmasına maliyyə yardımının ayrılması və ödənilməsi qaydaları haqqında Əsasnamə» də təsdiq edilmişdir. Bu məqsədlə 2004-2006-cı illərin Dövlət büdcəsində müvafiq məbləğdə ***(2006-cı il üçün 172200 AZN)*** vəsaitin nəzərdə tutulmasına baxmayaraq ötən dövr ərzində həmin vəsait təyinatı üzrə istifadə olunmamışdır. Qeyd etmək lazımdır ki, 2007-ci ilin dövlət büdcəsində bu məqsədlə 400,0 min manat məbləğində vəsait nəzərdə tutulmuşdur. Hesab edirik ki, ötən dövr ərzində qey olunan qanunun tələblərinin yerinə yetirilməsi məqsədilə ayrılmış büdcə vəsaitinin təyinatı üzrə istifadə olunmamasına səbəb Azərbaycanın milli sığorta bazarında fəaliyyət göstərən sığorta təşkilatları tərəfindən kənd təsərrüfatı məhsullarının sığortalanması işi üzrə aparılan sığorta xidmətlərinin minimum səviyyədə təşkil edilməsi olmuşdur.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, milli sığorta bazarında fəaliyyət göstərən sığorta təşkilatları tərəfindən 2004-2006-cı illər ərzində «Kənd təsərrüfatı məhsullarının sığortası» növü üzrə yığılmış sığorta haqlarının həmin dövrlər üzrə daxil olmuş ümumi sığorta haqlarındakı xüsusi çəkisi ən yaxşı halda 0,02 faiz təşkil etmişdir.

Nümunə üçün aşağıdakı cədvələ nəzər salaq:

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**«Azərbaycan Respublikasında fəaliyyət göstərən sığorta təşkilatları tərəfindən 2004-2006-cı ilər ərzində «Kənd təsərrüfatı məhsullarının sığortası» növü üzrə bağlanmış sığorta müqavilələri, daxil olmuş sığorta haqları və verilmiş sığorta ödənişlərinə dair cədvəl:**

| № | İllər | Daxil olmuş sığorta haqları (manatla) | Sığorta haqqının ümumi həcmində xüsusi çəkisi, % | Verilmiş sığorta ödənişləri (manatla) | Sığorta ödənişinin ümumi həcmində xüsusi çəkisi, % |
|---|---|---|---|---|---|
| *1* | 2004 | 10 000 | 0,01 | 30 000 | 0,20 |
| *2* | 2005 | 20 000 | 0,02 | 5 000 | 0,02 |
| *3* | 2006 | 10 000 | 0,01 | 90 000 | 0,18 |

Göründüyü kimi göstərilən illər ərzində milli sığorta bazarında fəaliyyət göstərən sığorta təşkilatları tərəfindən «Kənd təsərrüfatı məhsullarının sığortası» növü üzrə istər sığorta haqları yığımı, istərsə də baş vermiş sığorta hadisələri ilə əlaqədar verilmiş sığorta ödənişləri heç də ürəkaçan səviyyədə olmamışdır.

Fikrimizcə Qanunun qüvvəyə mindiyi tarixdən etibarən milli sığorta bazarında fəaliyyət göstərən sığorta təşkilatları tərəfindən kənd təsərrüfatı məhsulları, xüsusən də **buğda istehsalı** ilə məşğul olan insanlar arasında düzgün təbliğat aparılsaydı onda ötən dövr ərzində bu növdən daxil olmuş sığorta haqları məbləği olduğundan xeyli artıq yığılardı. Eyni zamanda bu milli sığorta bazarında fəaliyyət göstərən sığorta təşkilatları tərəfindən aqrar sektorda aparılan sığorta işinin inkişafına xeyli təkan vermiş olardı.

Hesab edirik ki, «Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsindən dörd ildən artıq bir müddətin keçdityini və ötən dövr ərzində kənd təsərrüfatında sığortanın aparılması işinin stimullaşdırılmasına nəzərəçarpacaq müsbət təsir göstərmədiyini, həmçinin günün tələblərinə cavab vermədiyini nəzərə alaraq bu sahə üzrə beynəlxalq təcrübəni yaxından öyrənməklə qeyd olunan qanuna **əlavə və dəyişikliklərin edilməsi**nə böyük ehtiyac vardır.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ölkəmizin aqrar sektorunda aparılan sığorta işinin inkişafına nail olunması istiqamətində aparılan tədbirlərdən biri kimi 2006-cı ildə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və qardaş Türkiyə Respublikasının **Türk İşbirliyi və Kalkınma İdarəsi Birliyinin** (TİKA) Bakı Proqram Koordinatorluğunun təşəbbüsü əsasında Bakı şəhərində **«Kənd**

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**təsərrüfatı məhsullarının və heyvanlarının sığortalanmasında dövlətin rolu»** mövzusunda seminar keçirilmişdir.

Ötən ilin 30 oktyabr - 02 noyabr tarixləri arasında keçirilmiş seminarda Türkiyə Respublikasının Xəzinə Müstəşarlığının Sığorta Denetleme Kurulu Başkanlığının *(Sığorta Nəzarəti Şurası Sədirliyinin)* **başkan yardımçısı** Emin GÜRE və həmin qurumun **mütəxəssisi** Arif Hikmet CESUR tərəfindən «Kənd təsərrüfatı məhsullarının və heyvanlarının sığortalanmasında dövlətin rolu» mövzusu üzrə Türkiyə təcrübəsi barədə seminar iştirakçılarına geniş məlumat verilmişdir.

Məlumat üçün qeyd edək ki, Türkiyə Respublikasında aqrar sahənin inkişaf etdirilməsi məqsədilə əvvəllər bu sahədə çalışan insanların becərdikləri kənd təsərrüfatı məhsulları dövlət tərəfindən qabaqcadan müəyyən olunmuş məbləğə alınaraq daxili və xarici bazarlarda satılırdı. Sonradan həyata keçirilmiş tədbirin nəticələri üzrə aparılmış müşahidələr sübut etmişdir ki, kənd təsərrüfatının istehsalı ilə məşğul olan vətəndaşlara verilən bu cür Dövlət dəstəyi nəinki kənd təsərrüfatının stimullaşdırılmasına öz müsbət təsirini göstərmiş əksinə, bu getdikcə həmin sektorun zəifləməsinə səbəb olmuşdur. Belə ki, becərilən məhsulların Dövlət tərəfindən qabaqcadan müəyyən olunmuş qiymətə alınması əhalidə müəyyən arxayınçılıq yaratdığından onların keyfiyyəti xeyli aşağı düşmüşdür ki, bu da sonda həmin məhsulların alış dəyərindən aşağı qiymətə satılması və Dövlət büdcəi vəsaitinin lüzumsuz itkisi ilə nəticələnmişdir.

Bundan sonra aparılmış uzunmüddətli araşdırmaların və bu sahə üzrə uğur qazanmış qabaqcıl dövlətlərin tətbiq etdikləri təcrübələrin dərindən öyrənilməsinin nəticəsi olaraq ölkədə kənd təsərrüfatı məhsulları istehsalının inkişaf etdirilməsi və bu növ üzrə aparılan sığorta işinin stimullaşdırılması məqsədilə 2005-ci ildə Türkiyə Respublikasının «Tarım Siqortaları Kanunu» ***(Kənd təsərrüfatı məhsullarının sığortası haqqında qanun)*** qəbul edilmişdir. Artıq 01.07.2006-cı ildən tarixdən başlayaraq qardaş ölkənin 90 bölgəsində pilot layihəsi kimi qeyd olunan qanun tətbiqinə başlanılmışdır.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, dövlət dəstəyi olan kənd təsərrüfatı məhsullarının təbii fəlakətlərdən sığortalanması zamanı bağlanılan sığorta müqavilələrinə tətbiq edilən tariflər bölgələr üzrə müxtəlifdir. Buna səbəb həmin bölgələrdə təbii fəlakətlərin baş vermə ehtimalının müxtəlif olmasıdır ki, bu da Türkiyə Respublikasının Çevrə və Orman Bakanlığı ***(Ekologiya və Təbii Sərvətlər Nazirliyi)*** tərəfindən müəyyənləşdirilməklə rəsmən təsdiq olunmuşdur.

**Qeyd olunan qanunun qəbul edilməsində əsas məqsəd,** aqrar sahədə aparılan sığorta işinin inkişaf etdirilməsi məqsədilə əhalinin kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan təbəqəsinə Dövlət dəstəyinin verilməsindən, baş vermiş sığorta hadisələri nəticəsində vətəndaşlara dəymiş zərərin əvəzinin ən qısa zamanda ödənilməsindən, kənd təsərrüfatı məhsullarının istehsalına və onların sığortalanması işinə bütün ölkə ərazisində nail olmaqdan, baş vermiş təbii fəlakətlər nəticəsində əhaliyə dəymiş zərərin aradan qaldırılması zamanı Dövlət büdcəsi vəsaitinin xərclənməsinə müəyyən mənada qənaət etməkdən və s. ibarət olmuşdur.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ölkədə bu növ sığorta işinin keyfiyyətli aparılması, qeyd olunan qanunun tələblərinin düzgün yerinə yetirilməsi, bağlanmış müqavilələr üzrə daxil olmuş sığorta haqlarının vahid bir mərkəzdə toplanılması, həmçinin baş vermiş sığorta hadisələrinə görə sığorta ödənişlərinin verilməsi istiqamətində şəffaflığın təmin olunması məqsədi ilə Dövlət tərəfindən qısa adı TARSİM olan **Tarım Siqortaları Havuzu** *(Kənd təsərrüfatı məhsullarının sığortası fondu)* yaradılmışdır.

Kənd təsərrüfatı məhsullarının sığortası fondunun *(bundan sonra fond)* **əsas gəlirləri** sığorta təşkilatları tərəfindən bu növ üzrə baglanılmış sığorta müqavilələrinə görə alınaraq fonda ödənilən sığorta haqları, bağlanılmış sığorta müqavilələri üzrə hesablanmış sığorta haqlarında Dövlətin payı, daxil olmuş sığorta haqlarının investisiyasından əldə olunan gəlirlər, bağlanılmış təkrarsığorta müqaviləsinə görə alınan komisyon mükafatları, zərurət yaranacağı halda alınan kreditlər, büdcə vəsaiti hesabına daxil olan əlavə pul vəsaitləri, və s. ibarətdir.

**Xərcləri isə** baş vermiş sığorta hadisələri üzrə veriləcək sığorta ödənişləri, fondun idarə olunması məqsədilə çəkilən xərclər, bağlanılmış sığorta müqavilələri üzrə sığortaçılara verilən komisyon mükafatlar, bağlanmış təkrarsığorta müqavilələrinə görə ödəniləcək təkrarsığorta haqqı, reklam və işlərin aparılması xərcləri, zərərlərin müəyyən olunması məqsədilə çəkilən xərclər, alınmış kreditlər üzrə əsas borc və faiz məbləğlərinin ödənilməsi, bu qanunla müəyyən olunmuş digər ödəmələr və İşlətici Şirkətə ödəniləcək işlətmə haqqıdır.

Türkiyə Respublikası qanunvericiliyinə əsasən Tarım Siqortaları Havuzunun *(Kənd təsərrüfatı məhsullarının sığortası fondunun)* **gəlirləri bütün növ vergi və rüsumlardan azaddır.**

Fondun idarə olunması Dövlət dəstəyi olan kənd təsərrüfatı məhsullarının sığortalanmasına razılıq almış sığorta təşkilatları tərəfindən qurulmuş ortaq bir İşlədici Şirkət ***(bundan sonra şirkət)*** tərəfindən həyata keçirilir.

Fondu idarə edən Şirkətin əsas vəzifəsi, bağlanmış sığorta müqavilələrinin uçotunun aparılmasından, sığortalılar tərəfindən ödəniləcək sığorta haqlarının vaxtlı-vaxtında ödənilməsinə nəzarət etməkdən, qəbul edilmiş risklərin daxili və ya xarici təkrarsığortaçılara təkrarsığortaya verilməsindən və bu məqsədlə müvafiq danışıqların aparılmasından, baş vermiş sığorta hadisəsi nəticəsində dəymiş zərər məbləğinin vaxtında müəyyən edilməsindən və bununla bağlı müvafiq işlərin aparılmasından, qəbul olunmuş qərarların icra edilməsindən, bu növ sığortanın aparılması işi üsrə statistik göstəriciləri hazırlamaqdan, fonda daxitl olmuş vəsaiti qanunvericiliklə müəyyən olunmuş qaydada investisiya etməkdən, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan vətəndaşları məlumatlandırmaq məqsədilə əhali arasında reklam və təbliğat işlərini aparmaqdan, və s. ibarətdir.

Şirkətin il ərzində görəcəyi bütün işlər, o cümlədən; sığorta ödənişlərinin verilməsi, vəsaitlərin investisiyaya yönəldilməsi, reklam xarakterli tədbirlərin həyata keçirilməsi və s. barədə qərarlar 7 nəfərdən ibarət bir tərkibdə formalaşmış **Ümumi Şura** tərəfindən qəbul olunur və şirkət müdiri görülmüş işlər barədə mütəmadi olaraq Şura qarşısında müvafiq hesabat verir.

***Ümumi Şuranın*** *(bundan sonra Şura)* tərkibi **Kənd Təsərrüfatı Nazirliyi**ndən iki nəfər, **Xəzinə Müstəşarlığı**ndan iki nəfər, **Türkiyə Sığortaçılar Birliyi**ndən bir nəfər, **Aqrar Palatalar Birliyi**ndən bir nəfər və **İşlətici Şirkə**tdən

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bir nəfər olmaqla hər biri üç il müddətinə seçilməklə formalaşdırılmışdır. Qanuna görə qeyd olunan şuranın sədri **Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi** olmalıdır.

Sözügedən qanunun tələblərinə əsasən kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan vətəndaşların könüllü şəkildə bağladıqları sığorta müqaviləsinə görə ödəyəcəkləri sığorta haqqı məbləğinin 50 faizi Dövlət büdcəsi vəsaiti hesabına ödənilir.

Dövlət dəstəyi olan kənd təsərrüfatı məhsulları sığortasının əhatə dairəsi ***təminat verilən risklər göstərilməklə*** hər il Türkiyə Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur.

2006-cı ildə Dövlətin dəstəyi ilə aparılan kənd təsərrüfatı sığortası əsasən dörd qrupa bölünmüşdür. Bunlar, bütün növ **bitki məhsullarının** *(meyvə, tərəvəz və tarla məhsulları)* sığortası, bütün növ **istilikxana məhsullarının** *(parnik məhsulları)* sığortası, **heyvanların** *(süd verən cins inəklərin)* **həyat sığortası** və bütün növ **ev quşlarının** sığortası növləridir.

Göstərilən quruplar üzrə verilən sığorta təminatı, **bütün növ bitki** *(ölkə ərazisində becərilən bütün növ kənd təsərrüfatı)* **məhsullarına** - dolu, yanğın, fırtına, burulğan *(tornado)* və don vurma, **bütün növ istilikxana** *(parnik)* **məhsullarına** – dolu, yanğın, fırtına, burulğan *(tornado)* və uçqun, **heyvanların həyat sığortasına** -bütün növ heyvan xəstəlikləri, doğum, cərrahi müdaxilə, ilan və zəhərli həşəratların sancması, bütün növ qəzalar, ot və ya digər yemlərdən zəhərlənmələr, yanğın və gün vurma nəticəsində meydana gələn ölüm yaxud məcburi kəsilmə, **ev quşlarının sığortası –** isə bütün növ quş xəstəlikləri, bütün növ qəza və zəhərlənmələr, məcburi kəsilmələr, bütün növ təbii fəlakətlər və yanğın risklərini əhatə edir.

Qeyd olunan qanunun tələblərindən yararlanmaq arzusunda olan vətəndaşlar və ya sahibkarlar tərəfindən aşağıda qeyd olunan tələblərə əməl olunması məcburidir:

-becərdikləri bitki məhsullarını sığorta etdirmək istəyən şəxslərin qanunla müəyyən olunmuş qaydada qeydiyyata durması;

-süd verən cins inəkləri sığorta etdirmək istəyən şəxslər tərəfindən heyvanların gün və ya ay ərzində neçə litir süd verməsi barədə müvafiq orqana məlumat verməklə tələb olunan qaydada qeydiyyata durması və baytar xidmətindən vaxtlı-vaxtında istifadə etməsi;

- bütün növ istilikxana məhsullarını sığorta etdirmək istəyən şəxslər tərəfindən müvafiq qarşısıalınma tədbirlərinin görülməsi;

-ev quşlarını sığorta etdirmək istəyən şəxslər tərəfindən isə quşların qapalı şəraitdə saxlanılması və müvafiq gigiyenik tədbirlərin görülməsinə ciddi əməl olunması.

Məlumat üçün qeyd etmək lazımdır ki, Ttürkiyə Respublikasında süd verən cins inəklərin qeydiyyatı ilə məşğul olan xüsusi dövlət qurumu mövcuddur ki, burada da əsas məqsəd ölkə ərazisində bu növ üzrə sahibkarlıq fəaliyyəti ilə məqşğul olan şəxslər tərəfindən il ərzində nə qədər süd və süd məhsullarının istehsal olunmasınnın statistikasını aparmaqla yanaşı onların müvafiq vergi orqanlarında qeydiyyata durmalarını təmin etməkdən ibarətdir.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Bəhs olunan qanunun tələblərinə əsasən kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan vətəndaşlar tərəfindən yuxarıda göstərilən tələblərə ciddi əməl olunmaqla yanaşı Dövlət dəstəyi olan kənd təsərrüfatı məhsulları növləri üzrə sığorta müqaviləsi bağlandıqdan sonrakı müddət ərzində baş vermiş və ya verəcək istənilən dəyişiklik barədə dərhal müvafiq orqanlara və sığortaçıya məlumat verilməlidir.***

Kənd təsərrüfatı məhsullarının sığortası haqqında qanunun tələblərindən yararlanmaq istəyən şəxslər yuxarıda qeyd olunan tələblərə əməl etməklə könüllü olaraq öz istəkləri barədə Dövlət dəstəyi olan kənd təsərrüfatı məhsullarının sığortalanmasına razılıq almış sığorta təşkilatının yaxınlıqdakı təmsilçisinə yazılı və ya şifahi şəkildə müraciət edib müvafiq sığorta müqaviləsi bağlaya bilərlər.

Qanunvericiliyə əsasən sığortalının ödəyəcəyi sığorta haqqı məbləğinin ilkin hissəsi müqavilənin bağlandığı və ya ən geci sığorta polisinin təqdim olunduğu gün ödənilməlidir. Əks təqdirdə ***sığorta polisi sığortalıya təqdim olunsa belə*** bağlanılmış sığorta müqaviləsi etibarsız hesab olunur və fond vətəndaş ***(sığortalı)*** qarşısında heç bir öhdəlik daşımır.

Sığorta müqaviləsi bağlanıldıqdan və sığorta polisi sığortalıya təqdim olunduqdan dərhal sonra agentin və ya nümayəndənin təmsil etdiyi sığorta təşkilatı bağlanılmış sığorta müqaviləsi barədə **«Tarım Siqortaları Havuzu»**nu idarə edən şirkətə ətraflı məlumat verməklə tam və ya qismən alınmış sığorta haqqının fonda ödənilməsini təmin edir.

Sığorta təşkilatı tərəfindən yazılı şəkildə şirkətə göndərilən məlumatda sığortalının müvafiq orqanlarda qanunvericiliyə uyğun qeydiyyata durması, bağlanmış müqavilə üzrə müəyyən olunmuş sığorta haqqında Dövlətin payı, sığortalı tərəfindən ödəniləcək sığorta haqqının qalan hissəsinin hansı müddətlərdə ödənilməsi və s. kimi məlumatlar mütləq öz əksini tapmalıdır.

Sözü gedən qanunun tələblərinə əsasən Dövlət dəstəyi olan kənd təsərrüfatı məhsullarının sığortalanmasına razılıq almış sığorta təşkilatları tərəfindən kənd təsərrüfatı məhsullarını istehsal edən şəxslərlə yuxarıda qeyd olunan növlər üzrə sığorta müqaviləsi bağlanıldıqda onlara yalnız işlədici şirkət tərəfindən hazırlanmış və Şuranın qərarı ilə təsdiq edilmiş vahid sığorta polisi təqdim edilməlidir.

Kənd təsərrüfatı məhsullarının sığortası haqqında qanunun tələblərinə əsasən dövlət dəstəyi olan kənd təsərrüfatı məhsullarının sığortalanmasına razılıq almış sığortaçı qeyd olunan növlərdən ***(dövlət dəstəyi verilən növlər)*** bağladığı sığorta müqavilələri üzrə gələcəkdə baş verə biləcək sığorta hadisələrinə görə heç bir öhdəlik daşımır. Sığortaçı yalnız bağladığı sığorta müqavilələrinə görə alınacaq sığorta haqqından ***(tam məbləğdən)*** müəyyən faizi məbləğində komisyon mükafat alır. Şirkətin ***(sığortaçının)*** risk öhdəliyi yalnız o halda yarana bilər ki, sığortaçı bağlanılmış sığorta müqaviləsi üzrə müəyyən məbləğdə riski fonddan ***(havuzdan)*** öz üzərinə təkrarsığortaya qəbul etmiş olsun.

Kənd təsərrüfatı məhsullarının sığortası haqqında qanunun tələblərinə əsasən meyvə, tərəvəz və bütün növ tarla məhsullarının sığortalanması zamanı müəyyən olunmuş sığorta haqqı məbləğindən Dövlətin payı ***(sığorta haqqının 50 faizi)*** çıxıldıqdan sonra qalan məbləğin 10 faizi müqavilənin bağlandığı və ya sığorta polisinin verildiyi gün digər hissəsi isə ən geci məhsul yığımının sonunadək,

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

istilikxana *(parnik)* məhsulları, heyvanların həyat sığortası və ev quşlarının sığortası növləri üzrə isə Dövlətin payı çıxıldıqdan sonra qalan məbləğin 25 faizi müqavilənin bağlandığı və ya sığorta polisinin verildiyi gün digər hissəsi isə ən çoxu 5 dəfəyə olmaqla sığortalı tərəfindən ödənilə bilər.

Sığorta haqqının qalan hissəsi sığortalı tərəfindən qabaqcadan müəyyən olunmuş vaxtlarda ödənilmədikdə bunun üçün qanunvericiliklə müəyyən olunmuş məbləğdə dəbbə pulu *(faiz)* hesablanır. Sığortalı tərəfindən ödəniləcək sığorta haqqının ödənilməsi təkrarən gecikdirildiyi təqdirdə sığortaçı müəyyən vaxt verməklə onun ödənilməsini sığortalıdan tələb etmək və ya bağlanmış müqaviləni ləğv etmək hüququna malikdir. Müqavilə etibarsız hesab olunduğu zaman sığortalının ödəyəcəyi sığorta haqqı məbləği müqavilənin qüvvədəolma günlərinə bölünür və müqavilənin bağlandığı tarixdən fondun məsuliyyət daşıdığı müddətə düşən məbləğ sığorta haqqından çıxılmaqla qalan hissəsi sığortalıya qaytarılır.

Dövlət dəstəyi olan kənd təsərrüfatı məhsulları növündən bağlanılmış sığorta müqavilələrinə görə təminat verilmiş risklərdən hər hansı biri üzrə sığorta hadisəsi baş verdikdə sığortalı tərəfindən qanunvericiliklə müəyyən olunmuş müddət ərzində sığortaçının mərkəzi ofisinə və ya ağentinə, yaxud sığorta polisində göstərilən ünvanlara qanunvericiliklə müəyyən olunmuş müddət ərzində mütləq məlumat verilməlidir. Məlumatda sığortalının adı, soy adı və ünvanı, VÖEN-nin və ya sığorta polisinin nömrəsi, hadisənin baş vermə səbəbi və dəqiq vaxtı, bütün növ bitki və bütün növ istilikxana məhsulları sığortalarında-zərər çəkmiş məhsulun növü, yerləşdiyi rayon və kənd, heyvanların həyat və ev quşlarının sığortasında isə zərər çəkmiş heyvana dair bütün məlumatlar göstərilməlidir.

Sığortalı tərəfindən «bütün növ bitki məhsullarının sığortası növü» üzrə 5-iş günü, «istilikxana məhsulları», «heyvanların həyat sığortası» və «bütün növ ev quşlarının sığortası» növləri üzrə isə isə ən geci 24 saat ərzində yuxarıda qeyd olunan ünvanlardan birinə məlumat verilməlidir.

Baş vermiş sığorta hadisəsi barədə məlumat verilməklə yanaşı sığortalı tərəfindən aşağıda göstərilənlərə əməl olunması vacibdir:

-sığorta hadisəsinin erkən baş verməsi nəticəsində zərər çəkmiş məhsulu yenisi ilə əvəz etmək imkanı olduğu təqdirdə tarlanın şumlanması üçün sığortaçının razılığını almaq;

-sığorta hadisəsinin baş verdiyi tarixdən zərərin müəyyən edilməsi tarixinədək ötən müddət ərzində zərər dəyməmiş məhsulların və ya heyvanların məhv olmaması məqsədilə müvafiq tədbirlər görmək;

-baş vermiş sığorta hadisəsi nəticəsində dəymiş zərərin müəyyən edilməsi məqsədilə şirkətin və ya sığortaçının nümayəndələrinə müvafiq şərait yaratmaq və lazımi sənədləri onlara təqdim etmək;

-tələb olunacağı təqdirdə, hadisənin baş vermə səbəblərini və dəymiş zərər məbləği ilə ekspert tərəfindən müəyyən olunmuş zərər məbləğini müqayisə etmək üçün lazımi sənədləri sığortaçının və ya şirkətin nümayəndəsinə təqdim etmək;

-dəymiş zərər məbləği ekspert tərəfindən müəyyən olunana qədər zərər məbləğinin artırılması məqsədilə heç bir qərəzçiliyə yol verməmək.

Kənd təsərrüfatı məhsullarının sığortası haqqında Türkiyə Respublikası Qanununun tələblərinə əsasən tarım siqortaları havuzunu idarə edən şirkət, sığorta

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

hadisəsinin baş verməsi barədə məlumatı aldıqdan dərhal sonra öz ekspertlərini ***(aqronom və ya baytar həkimi)*** hadisə yerinə göndərməyə borcludur. Ekspert tərəfindən hadisə yerinə baxış keçirildikdən, baş vermiş sığorta hadisəsi nəticəsində dəymiş zərər məbləği və müvafiq akt tərtib olunduqdan sonra ən geci 30 gün ərzində sığorta ödənişi məbləği Şuranın qərarına əsasən tarım siqortaları havuzunu idarə edən şirkət tərəfindən bank vasitəsilə sığortalıya ödənilir. **Bu qanuna görə baş vermiş sığorta hadisəsi nəticəsində zərər çəkmiş şəxsə ödənilən sığorta ödənişinin cəmi istənilən halda ümumi sığorta məbləğinin 80 faizindən artıq ola bilməz.**

Qeyd edək ki, qanunun bu tələbi sığortalanmış əmlakın gələcəkdə baş verə biləcək hadisələrdən qorunması üçün sığortalılar tərəfindən müvafiq qarşısıalınma tədbirlərinin, o cümlədən; istilikxana sistemlərinin işlək vəziyyətdə tutulması, quşların qapalı şəraitdə saxlanılması, gigiyenik tədbirlərin görülməsi və s. kimi işlərin dəqiq və vaxtlı-vaxtında həyata keçirilməsi məqsədilə nəzərdə tutulmuşdur ki, burada da əsas məqsəd kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan və öz əmlakını sığorta etdirmiş şəxslərdə yarana biləcək arxayınçılığın qarşısını almaqdan ibarətdir.

Sözügedən qanunun tələblərinə əsasən sığorta hadisəsinin baş verməsi zamanı dəymiş zərər məbləğinin sığortalının günahı ucbatından artdığı sübut olunacağı təqdirdə hesablanmış sığorta ödənişi məbləğindən həmin fərq çıxılmaqla yerdə qalan hissəsi vətəndaşa ödənilir.

Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan vətəndaşlara verilən Dövlət dəstəyinin tərkib hissəsi olaraq qanunda həmçinin fonda daxil olmuş sığorta haqlarının ümumi məbləği baş vermiş sığorta hadisələrinə görə veriləcək sığorta ödənişlərindən az olduqda ödənişin qalan hissəsinin büdcə vəsaiti hesabına ödənilməsi də nəzərdə tutulmuşdur.

Məlumat üçün qeyd etmək istərdik ki, **«Tarım Siqortaları Havuzu»**nu idarə edən işlədici şirkətin rəhbəri cənab Bülent Bora 2006-cı ilin son 6-ayı ərzində bəhs olunan sığorta növünün aparılmasının nəticələrinə dair Türkiyə mətbuatına verdiyi açıqlamada bəyan etmişdir ki: «…kənd təsərrüfatı məhsullarının sığortası haqqında qanunun 2006-cı ilin II yarım ili ərzində ölkənin 90 bölgəsində pilot layihəsi kimi həyata keçirildiyini və bundan böyük gözləntilər almayacağımızı düşündüyümüzə baxmayaraq nəticələr xeyli ümidverici olmuşdur. Belə ki, ötən ilin son 6 ayı ərzində Dövlət dəsdəyi olan kənd təsərrüfatı məhsullarının sığortalanması məqsədilə ümumilikdə 11449 ədəd sığorta müqaviləsi bağlanılmış və həmin sığorta müqavilələri üzrə 3.7 milyon YTL məbləğində sığorta haqqı daxil olmuşdur. Bağlanılmış sığorta müqavilələrinə əsasən 123429 dekar ***(123429 sot)*** tarla, 712 istilikxana ***(parnik)***, 150 milyon YTL dəyərində bitki məhsulları, 6212 ədəd olmaqla sığorta məbləği 18 milyon YTL olan süd verən cins inək və 270 min ədəddən artıq toyuq və cücə sığortalanaraq təminat altına alınmışdır. Qeyd olunan dövr ərzində bitki məhsulları üzrə 476 sığorta hadisəsi baş vermiş və bu növ üzrə 582 min YTL, heyvanların həyat sığortası növü üzrə isə 46 sığorta hadisəsi baş vermiş və 28976 YTL dəyərində zərər məbləği müəyyənləşdirilərək sığortalılara ödənilmişdir. Cənab Bülent Bora yuxarıdakı göstəricilərə əsaslanaraq bu növ

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sığortanın tədricən bütün ölkə ərazisində aparılacağını və gələcəkdə dövlət tərəfindən təminat verilən risklərin daha da artırılacağını qeyd etmişdir».

Qeyd etmək lazımdır ki, analoji təcrübə aqrar sahənin inkişaf etdirilməsi, ölkə ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarını artırılması, bu sahə üzrə aparılan sığorta işinin stimullaşdırılması, həmçinin təbii fəlakətlər nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan əhaliyə dəymiş zərərin aradan qaldırılması zamanı büdcə vəsaiti xərclərinin azaldılması məqsədilə İspaniyada artıq 1978-ci ildən tətbiq edilir.

2006-cı il ərzində İspaniyada aqrar sahənin inkişaf etdirilməsi məqsədilə kənd təsərrüfatı məhsullarının sığortalanması üçün (***Dövlətin payı)*** 239.87 milyon avro məbləğində vəsait ayrılmışdır. Ölkədə aparılmış uzunmüddətli müşahidələr sübut etmişdir ki, büdcədə nəzərdə tutulmuş vəsaitin çox olmasına baxmayaraq bu rəqəm təbii fəlakət nəticəsində dəymiş zərər məbləğinin Dövlət tərəfindən ödənilməsi zamanı çəkilən xərclərdən xeyli aşağıdır. Bu isə bir daha sübut edir ki, kənd təsərrüfatı məhsullarının sığortalanmasına dövlət tərəfindən verilən dəstək ölkədə aqrar sahənin, o cümlədən, qeyd olunan sahə üzrə aparılan sığorta işinin inkişafına müsbət təsir göstərməklə yanaşı dövlətə də müəyyən fayda vermiş olur.

Ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalına güclü marağın yaradılması yolu ilə aqrar sahənin inkişafına nail olunması, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan vətəndaşların hüquq və mənafelərinin qorunması məqsədilə verilən Dövlət təminatının daha da gücləndirilməsi, aqrar sektorda aparılan sığorta işinin daha da inkişaf etdirilməsi, həmçinin gözlənilməz təbii fəlakətlər, o cümlədən yanğın, dolu, sel, daşqın, şaxta vurması və s. hadisələr nəticəsində vətəndaşların əmlakına vurulan zərərlərin əvəzinin ödənilməsi zamanı çəkilən büdcə xərclərinin azaldılması məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruri hesab edirik:

-ölkəmizin aqrar sektorunun və bu sahədə aparılan sığorta işinin inkişafına nail olunması məqsədilə xarici dövlətlərin, o cümlədən; qardaş Türkiyə Respublikasının bu sahə üzrə təcrübəsinin yaxından öyrənilməsi;

-bu növ sığortanın ölkəmizdə aparılmasına nail olunması məqsədilə Azərbaycan Respublikasının Maliyyə, Kənd Təsərrüfatı və Ekologiya və Təbii Sərvətlər Nazirliklərinin əməkdaşlarından ibarət işçi qrupunun yaradılması;

-Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan şəxslərə verilən dövlət dəstəyinin artırılması məqsədilə «Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında» Azərbaycan Respublikası Qanununa əlavə və dəyişiklərin edilməsi;

-sığortalanmasına maliyyə yardımı göstərilən kənd təsərrüfatı əmlakının növlərini artırılması;

-kənd təsərrüfatı məhsullarının sığortalanması zamanı hesablanmış sığorta haqqının büdcə vəsaiti hesabına ödənilən hissəsini 25 faizdən ən azı 50 faizədək artırılması;

-bu növ sığortanın əsas mahiyyətini kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan vətəndaşlara dərindən aşılamaq məqsədilə ölkəmizdə fəaliyyət göstərən və sığortanın qeyd olunan növünü aparan sığorta təşkilatları ilə birgə kütləvi informasiya vasitələrində təbliğat və izahat işlərinin aparılması.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bütün bu işlərin görülməsi üçün gərgin iş, böyük əmək və vaxt tələb olunur. Lakin biz əminik ki, ulu öndərimiz tərəfindən böyük zəhmətlər bahasına əldə edilərək biz nəsillərə ərmağan olunmuş, Azərbaycanımızın siyasi, iqtisadi, mədəni, hüquqi və s. sahələrdə inkişafını təmin edəcək mövcud şərait Heydər Əliyev siyasətinin layiqli davamçısı olan möhtərəm prezidentimiz İ.H.Əliyev cənablarının başçılığı ilə daha da inkişaf etdiriləcək və xalqımızın rifahının yaxşılaşdırılması naminə görülən əməli tədbirlərin bəhrəsini yaxın gələcəkdə Azərbaycanımızın hər bir bölgəsində, o cümlədən sığorta sahəsində hiss edəcəyik.

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com